

# Şəkinin 2713 illiyi qeyd olunub

## *Şəhər dünyada memarlıq abidələri, gözəl təbiəti, ənənəvi sənətkarlıq və mətbəx mədəniyyəti ilə tanınır*

**Qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəki şəhərinin 2713 illiyi münasibətilə iyulun 6-da "Yuxarı Karvansara" mehmanxana kompleksində bayram tədbiri keçirilib.**

"Şəhər günü"nün Şəkidə "İpək Yolu" XIV Beynəlxalq Musiqi Festivalının keçirildiyi günlərdə keçirilməsi yerli sakinlər və qonaqlar tərəfinfən daha böyük sevinclə qarşılanıb. Tədbir iştirakçıları əvvəlcə Şəki sənətkarlarının əl işlərindən ibarət sərgilərə tamaşa ediblər.

Mərasimdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək, şəhər sakinlərini əlamətdar bayram münasibətilə təbrik edərək vurğulayıb ki, 2713 illiyini qeyd edən, Böyük İpək Yolunun üzərində yerləşən qədim Şəki bütün dövrlərdə Azərbaycan tarixində mühüm yerə malik olub. Şəkinin nadir tarixi memarlıq abidələri - karvansaralar, məscidlər, minarələr, evlər, qala divarları, körpülər şəhərin qədim memarlıq üslubundan xəbər verir. Rayon ərazisində dövlət mühafizəsinə götürülmüş 134 arxeoloji və memarlıq abidəsi var. Onlardan Kiş kəndindəki Alban məbədi, Şəki Xan Sarayı dünya əhəmiyyətli abidələrdir. Şəki bu gün həm də ölkəmizin önəmli turizm mərkəzi kimi tanınır. Şəki şəhəri tarixi memarlıq abidələri, gözəl təbiəti, ənənəvi sənətkarlıq və mətbəx mədəniyyəti ilə yerli və xarici turistlərin diqqətini cəlb edir. Sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olması bu şəhərə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə üzv olmaq hüququ qazandırıb. 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iclasında "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Qeyd olunub ki, Şəki, eyni zamanda, festivallar şəhəri kimi də tanınır. Hər il bu şəhərdə keçirilən "İpək Yolu" Beynəlxalq musiqi, şirniyyat, teatr festivalları və beynəlxalq səviyyəli tədbirlər, turizm potensialının genişləndirilməsi və beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynayıb.

**M.NƏRİMANOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 8 iyul (№ 137).- S.10.